UOT 94(479.24); UOT 94”16/18”

SAMİR İSMAYILOV
Bakı Dövlət Universitetinin dosenti
samir.ismayilov@mail.ru

ÇAR RUSİYASI DÖVRÜNDƏ QƏRBİ AZƏRBAYCANDA ŞƏHƏR MƏKTƏBLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/90-93

Məqalədə çar Rusiyası dövründə Qərbi Azərbaycan torpaqlarında fəaliyyət göstərən şəhər məktəblərindən bəhs olunur. Aparılan araşdırmalar göstərir ki, çar Rusiyası ilə Qacarlar arasında Azərbaycan əraziləri ikiyə parçalandıqdan sonra keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində məktəb və maarif sisteminin inkişafında müəyyən irəliləyişlər baş verdi. Keçmiş dini təhsil ocaqları tədricən dünyəvi məktəblərlə əvəz olundu. Bölgədə əvvəlcə qəza məktəbləri, XIX əsrin ortalarından etibarən isə İrəvan quberniyasının qəza şəhərlərində şəhər məktəbləri açıldı. Belə məktəblər sırasında İrəvan şəhər məktəbi, Aleksandropol şəhər məktəbi, Naxçıvan və Ordubad şəhər məktəbləri var idi. Bütün bunlar məqalədə araşdırılaraq, şəhər məktəblərinin sayı, şagird kontingenti, məqsədi haqqında məlumat verilir.

Açar sözlər: Qərbi Azərbaycan, məktəb, şəhər, İrəvan, Naxçıvan, Ordubad, islahat.

Giriş. Qərbi Azərbaycan tarixi Azərbaycan torpaqlarının qərb hissəsini, Kiçik Qafqazın cənub hissəsini və Ağrı dağına doğru şimaldan cənuba bir sıra yaylaları və yüksək düzənlikləri, başqa sözlə desək, bugünkü Ermənistan Respublikasının ərazilərini əhatə edir. Qərbi Azərbaycanın ən yüksək əraziləri vilayətin şimalında yerləşir. Qərbdən Qars vilayəti, cənubdan Türkiyənin Asiya hissəsi olan Ərzurum vilayəti ilə əhatə olunur. Ümumi ərazisinin 3,6%-i 1-2 min fut (0.3048 m.) yüksəklikdə, 16,3%-i 2-4 min fut yüksəklikdə, 29,8%-i 4-6 min fut yüksəklikdə, 38.8%-i 6 ilə 8 min fut yüksəklikdə, 9.3%-i 8 ilə 10 min fut arasında və 2.2%-i dəniz səviyyəsindən 10 min futdan yuxarıda yerləşir [1, s.16].

Şəhər məktəbləri haqqında əsasnamə və şəhər məktəblərinin təşkili. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycan torpaqlarının ikiyə paçalanmasından sonra Şimali Azərbaycan əraziləri çar Rusiyasının müstəmləkə əsarətinə keçdi. Xanlıqların statusu ləğv edildi, burada əyalət və dairələr yaradıldı. Qərbi Azərbaycan torpaqlarını əhatə edən İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində bütün sahələrdə olduğu kimi təhsil sahəsində də müəyyən addımlar atıldı. XIX əsrin əvvəllərindən başlayaraq Qərbi Azərbaycanda dünyəvi məktəblər açılmağa başlandı. Əvvəlcə qəza məktəbləri, XIX əsrin ortalarından etibarən isə Qərbi Azərbaycan ərazilərində şəhər məktəbləri təsis olundu.

1868-ci ildən mövcud qəza məktəbləri iki və üç əsas sinifli məktəblərə çevrildi. Tədris planına latın və Avropa dilləri daxil edildi. Əvvəlki qəza məktəbləri yenidənqurma ilə, xüsusilə İrəvan qəza məktəbi progimnaziyaya çevrildi. Naxçıvan və Aleksandropol qəza məktəbləri üçsinifli şəhər məktəblərinə çevrildi. Forma və məzmun etibarilə yeni olan şəhər məktəblərinin meydana gəlməsi irəliyə doğru atılmış mühüm bir addım idi.

15 may 1872-ci ildə isə “realnı məktəblər və şəhər məktəbləri” üçün nizamnamələr qəbul edildi [2, s.63]. Çar hökuməti tərəfindən 1872-ci il may ayının 31-də təsdiq edilmiş xüsusi nizamnaməyə görə, şəhər məktəbləri ya dövlət hesabına, ya zemstvo, ya şəhər icması və təbəqələri, yaxud da xüsusi şəxslərin hesabına açıla bilərdi. Şəhər məktəbləri bir, iki, üç və ya dörd sinifli nəzərdə tutulurdu. Əgər zərurət olardısa, şəhər məktəbləri 5 və 6 sinifdən ibarət də təsis edilə bilərdi. Şəhər məktəblərində təhsil müddəti 6 il idi. Lakin dərəcəsindən asılı olaraq ayrı-ayrı siniflərdə təhsil müddəti müxtəlif idi. Məsələn, birsinifli şəhər məktəblərində şagirdlər öz bacarıqlarına görə 3 müvafiq şöbəyə bölünürdü. Hər şöbədə təhsil müddəti 2 il davam edirdi. İkisinifli şəhər məktəblərində isə birinci sinifdə təhsil müddəti 4 il idi. İkinci sinifdə isə təhsil müddəti 2 il idi. Üçsinifli şəhər məktəblərinin hər sinfində təhsil müddəti 2 il müəyyən edilmişdi [2, s.72].

Qərbi Azərbaycanda, İrəvan quberniyasında belə məktəblərdən biri də Aleksandropol şəhərində açıldı. “Qafqaz təqvimi”nin 1877-ci il məlumatlarına görə, üçsinifli Aleksandropol şəhər məktəbində

direktor A.O.Mirakov, müəllimlər S.Q.Potapov və L.D.Qriqoraşvili idi [4, şöbə 3, s.79]. Qərbi Azərbaycanda Aleksandropol şəhərindən sonra Naxçıvan şəhərində də şəhər məktəbi açıldı. Qafqaz Tədris Dairəsinin 10 mart 1879-cu il tarixli xüsusi sərəncamı ilə Naxçıvan qəza məktəbi də bir çox məktəblər kimi şəhər məktəbinə çevrildi [3, cild 2, s.177].

Naxçıvan şəhər məktəbində maarifçi-ictimai mühitin inkişaf etdirilib genişlənməsində, mütərəqqi demokratik ideyaların yayılmasında, tədrisin elmi əsaslar üzərində qurulmasında 21 iyun 1879-cu ildə tanınmış alim-pedaqoq Konstantin Andreyeviç Nikitinin bu məktəbə müəllim-inspektor təyin olunmasının mühüm rolu oldu. Eyni zamanda K.A.Nikitinin məktəbə rəhbərlik etdiyi dövrdə və sonralar Fyodr Domaşevski, Georgi Uturqauri, Mirzə Sadıq Qulubəyov, Əliməmməd Xəlilov, S.P.Zelinski, Mirzə Kazım Qulubəyov və digər tanınmış pedaqoqlar Naxçıvan şəhər məktəbində pedaqoji fəaliyyətlə məşğul oldular [1, s.148].

"Qafqaz təqvimi"nin 1881-ci il məlumatına görə, Naxçıvan üçsinifli şəhər məktəbinin rəhbəri Konstantin Andreyeviç Nikitin, pravaslav məzhəbi üzrə Qavriyel Qurbeladze, erməni-qriqoryan təriqəti və erməni dili müəllimi Tovmas Ter-Kaspariyanç, müsəlman təriqəti və tatar dili müəllimi Mirzə Kərim oğlu Qulubəyov idi [6, şöbə 3, s.89].

Naxçıvan şəhər məktəbində müxtəlif fənlərin tədrisi prosesində tarix və coğrafiyaya aid verilən biliklər, Rusiya, Avropa və Qərb ölkələrinə dair məlumatlar, Şərq tarixi və mədəniyyəti, yerli diyarşünaslıq məsələlərinin öyrənilməsi, əxlaq məsələlərinə diqqət verilməsi bu tədris ocağının bir tərəfdən dünyəvi meyllərindən xəbər verirdisə, digər tərəfdən Azərbaycanın milli tarix və mədəniyyətinə dair elmi biliklərin aşılanmasının əsasını qoyurdu [1, s.149].

1879-cu ildə Naxçıvan şəhər ibtidai məktəbinin birinci sinfinə daxil olan Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə həmin məktəbdə oxuduğu illəri özünün dünyagörüşündə mühüm rol oynadığını dəfələrlə xatırlayaraq, o illərədə "II Aleksandrın mücahidlər tərəfindən Peterburqda güllələnməyi", "rus və osmanlı davası" kimi ciddi tarixi-coğrafi məlumatları öyrəndiyini, İ.A.Krılovun mühüm əxlaqi-tərbiyəvi əhəmiyyətə malik olan "Yolçu və it" təmsilini əzbərlədiyini qeyd etmişdi [1, s.149].

İrəvan-Yelizavetpol quberniyaları xalq məktəbləri direksiyasının inzibati mərkəzi 1877-ci ildə Gəncə şəhərinə köçürüldükdən sonra İrəvan quberniyası üzrə üçsinifli şəhər məktəbləri ilk vaxtlar yenə də Aleksandropol və Naxçıvan şəhərində, ibtidai məktəblər isə Novo-Bayazid və Ordubad şəhərləri və İrəvan qəzasında idi [5, şöbə 3, s.83].

İrəvan quberniyasında tədris ocaqlarının istər say baxımından, istərsə də yeni forma və məzmun baxımından inkişafının yeni mərhələsi 1880-ci ildə başlandı.

Əvvəllər ibtidai məktəb olan Novo-Bayazid 1880-ci ildə ikisinifli şəhər məktəbinə çevrildi. Məktəbdə ilk vaxt 77 şagird təhsil alırdı. Məktəbin direktoru M.S.Zedqinidze, prvaslav təriqəti üzrə (vakansiya), erməni-qriqoryan təriqəti üzrə keşiş Sarkis Azaryanç, digər müəllimlər Q.L.Kotiyev, məktəb həkimi A.A.Radionov idi [10, s.245].

Bundan başqa, 1880-ci ildə 60 şagirdi olan İrəvan şəhər ibtidai məktəbi açıldı. Məktəbin inspektoru S.S.Sumbatyanç, hüquq müəllimləri, pravaslav məzhəbi üzrə keşiş İssak İordanov, erməni-qriqoryan məzhəbi üzrə keşiş Q.Sukiyasyanç, müsəlman məzhəbi üzrə müəllim Ələsgər Hacı Məmmədəli oğlu idi [10, s.245].

"Qafqaz təqvimi"nin 1884-cü il məlumatına görə, Yelizavetpol və İrəvan quberniyaları və Qars vilayəti təhsil direksiyasının tabeliyində aşağıdakı şəhər məktəbləri var idi. Bunlar üçsinifli Aleksandropol şəhər məktəbi, üçsinifli Naxçıvan şəhər məktəbi, ikisinifli Novo-Bayazid şəhər məktəbi, üçsinifli Qars şəhər məktəbi, şəhər ibtidai məktəbləri isə birsinifli Ordubad (müəllimlər Qasım bəy Qasımov, erməni-qriqoryan məzhəbi üzrə protoirey Y.Ovanesov, müsəlman şəriəti üzrə Mirzə Əli Məmməd bəy Əlixanov), birsinifli İrəvan şəhər məktəbi (müəllimlər A.İ.Ter-Marukov, pravaslav məzhəbi üzrə İssak İordanov, erməni-qriqoryan məzhəbi üzrə Q.Sarkisyanç, müsəlman məzhəbi üzrə Məşədi İsmayıl Hacı Qasım Kazım oğlu), birsinifli Oltu şəhər məktəbləri idi [7, şöbə 4, s.93].

"Qafqaz təqvimi"nin 1886-cı il məlumatlarından aydın olur ki, Qars vilayəti üzrə şəhər məktəblərinin sayı çoxalmış, kişi və qadın məktəbləri də açılmışdı. Qars vilayəti üzrə şəhər məktəbləri aşağıdakılar idi. Bunlar Qars üçsinifli kişi məktəbi (məktəbin inspektoru K.T.Baqayev, hüquq üzrə N.Arxangelski, yunan dili üzrə Luka Saktarov, fəxri müəllim Nazir Əfəndi Atapaşazadə), Qars üçsinifli qadın məktəbi, ikisinifli Kağızman məktəbi, ikisinifli Oltu məktəbi idi [8, şöbə 2, s.84].

Məlumatlardan göründüyü kimi, 1877-1878-ci illər rus-türk müharibəsindən sonra Osmanlı imperiyasının çar Rusiyası tərəfindən ələ keçirilmiş Şərqi Anadolu vilayətləri Yelizavetpol-İrəvan quberniyaları tədris dairəsinin tərkibinə daxil edilmiş və "Yelizavetpol-İrəvan quberniyaları və Qars vilayəti tədris dairəsi" şəklində təşkil edilərək həmin bölgə üzrə əvvəlcə biri üçsinifli olmaqla Qars şəhər məktəbi, digəri isə Oltuda birsinifli olmaqla şəhər ibtidai məktəbləri, növbəti illərdə isə Qars şəhərində üçsinifli kişi və qadın məktəbləri, eləcə də Kağızman və Oltuda yeni məkətəblər açılmışdı.

1890-cı il məlumatlarına görə, İrəvan quberniyasında Tədris Dairəsinin birbaşa tabeliyində olan 35 təhsil müəssisəsi var idi ki, bunun da 4-ü orta, 3-ü aşağı, 4-ü fərdi, 24-ü ibtidai məktəblər idi. Bu məktəblərdə 1.906 oğlan uşağı, 199 qız uşağı, ümumilikdə 2.105 nəfər şagird təhsil alırdı. Quberniya üzrə hər 10.000 nəfərə 0.52 məktəb, hər 10.000 nəfərə təhsil alanların sayı 31 nəfər idi [9, s.61]. 1890-cı il məlumatlarına görə, İrəvan quberniyasında ümumilikdə məktəblərin sayı (Tədris Dairəsinin həm tabeliyində olan, həm də tabeliyində olmayan) 70 idi ki, bunun da 4-ü orta, 3-ü aşağı, 4-ü fərdi, 59-u ibtidai məktəblər idi. Bu məktəblərdə 5.072 şagird təhsil alırdı ki, bunun da 3.818 nəfəri oğlan, 1.254 nəfəri qız uşaqları idi. Quberniya üzrə hər 10.000 nəfərə 1.05 məktəb, hər 10.000 nəfərə təhsil alanların sayı 76 nəfər idi [9, s.62].

1890-cı il məlumatlarına görə, İrəvan quberniyasında müsəlman və yəhudi məktəbləri də daxil olmaqla təhsil müəssisələrinin sayı 73 idi ki, bunun da 6-sı orta, 3-ü aşağı, 4-ü fərdi, 60-ı ibtidai məktəblər idi. Bu məktəbdə təhsil alan şagirdlərin sayı 5.518 nəfər idi ki, bunun da 4.249 nəfəri oğlan, 1.269 nəfəri qız uşaqları idi. Bu halda quberniya üzrə hər 10.000 nəfərə 1.09 məktəb düşürdü, hər 10.000 nəfərdən 83 nəfəri təhsil alırdı [9, şöbə 2, s.63].

Nəticə. Məlumatlardan göründüyü kimi, İrəvan quberniyasında XIX əsrin 70-ci illərində yaranan şəhər məktəblərinin XX əsrin əvvəllərində həm sayında, həm də məzmununda yeni dəyişikliklər baş vermişdi. Əvvəllər ikisinifli olan şəhər məktəbləri üçsinifli şəhər məktəblərinə, üçsinifli şəhər məktəbləri isə dördsinifli şəhər məktəblərinə çevrilmişdi.

ƏDƏBİYYAT

1. Əmrahov Z. İrəvan quberniyasının tarixi: 1850-1917-ci illər. Bakı: Nurlar, 2022, 368 s.
2. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1985, 297 s.
3. Naxçıvan tarixi. 3 cilddə. II cild (XVIII əsrin 40-cı illərindən XX əsrin 30-cu illərinin sonunadək). Naxçıvan: Əcəmi, 2014.
4. Кавказский Календарь на 1877 год. Тифлис: Типография Главного Управления Наместника Кавказа, 1876.
5. Кавказский Календарь на 1880 год. Тифлис: Типография Главного Управления Наместника Кавказа, 1879.
6. Кавказский Календарь на 1881 год. Тифлис: Типография Главного Управления Наместника Кавказа, 1880.
7. Кавказский Календарь на 1885 год. Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказ, 1884.
8. Кавказский Календарь на 1887 год. Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказ, 1886.
9. Кавказский Календарь на 1890 год. Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказ, 1889.
10. Кавказский Календарь на 1893 год. Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказ, 1892.

САМИР ИСМАЙЛОВ
Доцент Бакинского Государственного Университета

ГОРОДСКИЕ ШКОЛЫ В ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ ВО ВРЕМЕНА ЦАРСКОЙ РОССИИ

В статье говорится о городских школах, действовавших на землях Западного Азербайджана во времена царской России. Проведенные исследования показывают, что после раздела азер-

байджанских территорий между Царской Россией и Гаджарами в развитии школьно-образовательной системы на территориях бывших Иреванского и Нахчыванского ханств был достигнут определенный прогресс. Бывшие религиозные учебные заведения постепенно были заменены светскими школами. Сначала в регионе были открыты аварийные школы, а с середины XIX века в аварийных городах Иреванской губернии открываются городские школы. Среди таких школ - Ереванская городская школа, Александропольская городская школа, Нахчыванская и Ордубадская городские школы. Все это исследуется в статье, а также приводятся сведения о количестве школ города, ученическом контингенте и их назначении.

Ключевые слова: Западный Азербайджан, школа, город, Иреван, Нахчыван, Ордубад, реформа.

SAMIR ISMAILOV
Associate professor of Baku State University

CITY SCHOOLS IN WESTERN AZERBAIJAN DURING TSARIST RUSSIA

The article talks about urban schools that operated in the lands of Western Azerbaijan during the times of Tsarist Russia. The conducted studies show that after the division of the Azerbaijani territories between Tsarist Russia and the Gajars, certain progress was achieved in the development of the school and educational system in the territories of the former Iravan and Nakhchivan Khanates. Former religious educational institutions were gradually replaced by secular schools. First, uyezd schools were opened in the region, and since the mid-19th century, urban schools have been opened in uyezd cities of the Irevan province. Among such schools were Irevan city school, Alexandropol city school, Nakhchivan and Ordubad city Schools. All this is researched in the article, and information is also provided on the number of schools in the city, the student population and their purpose.

Keywords: Western Azerbaijan, school, city, Irevan, Nakhchivan, Ordubad, reform.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 fevral 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.